**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ABŞ-DA VƏ QƏRBİ AVROPADA YENİ SİYASİ CƏRƏYANLARIN BEYNƏLXALQ MÜNASİBƏTLƏRƏ TƏSİRİ

| | |
|---|---|
| İxtisas: | 5901.01 – “Beynəlxalq münasibətlər” |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Nihad Nəsiman oğlu Yaqublu** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R O E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | siyasi elmlər doktoru, dosent<br>**Ramiz Məmmədəli oğlu Sevdimalıyev** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**Hikmət Baba oğlu Məmmədov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Ləman Zahid qızı Qarayeva** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Elvin Bəhruz oğlu Talışınski** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________ | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________ | siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri:<br>_______________ | siyasi elmlər doktoru, professor<br>**Elçin İldırım oğlu Əhmədov** |

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq münasibətlərdə XXI əsr müxtəlif siyasi-hərbi hadisələrlə, əvvəlki ideoloji və geosiyasi tendensiyaların axarını dəyişən mühüm dönüş nöqtələri ilə əlamətdar olmuşdur. Mürəkkəb sosial, iqtisadi, siyasi və texnoloji proseslərin qarşılıqlı əlaqəsi nəticəsində mövcud dünya nizamı fərqli mərhələlərlə dəyişikliklərə uğramış, meydana gələn reallıqlar insanların həyatına hərtərəfli təsir göstərmişdir. Şübhəsiz ki, Qərbin bu yeni dinamikanın formalaşmasında rolu danılmazdır.

Vurğulamaq lazımdır ki, Qərb demək olar ki, XV əsrin sonlarından coğrafi kəşflər dövrünün başlanması ilə dünyanın getdiyi istiqaməti köklü şəkildə dəyişmişdir. Yeni qitələrin kəşfi, qlobal dəniz yolları üzərində hökmranlıq, müstəmləkəçilik, iri miqyaslı təbii resurslara çıxış əldə etmək və onların istismarı Qərbin hərbi, siyasi və maddi baxımdan dominant olmasına gətirib çıxartsa da, Renessans, Reformasiyalar, Elmi inqilab, Maarifçilik kimi əhəmiyyətli hadisələr onun elmi, ideoloji və mədəni hegemoniyasına səbəb oldu. Nəticədə, o həm də dünyaya idealogiyalar ixrac edən, liberal-demokratiya sistemi başda olmaqla digər xalqları düşüncə tərzi baxımından da istiqamətləndirən bir qüvvəyə çevrilmişdir.

Son dövrlərdə dünyada yaranan qeyri-stabillikdən sonra ABŞ və Avropaya böyük həcmdə artan immiqrant axını və nəticədə baş verən müxtəlif inteqrasiya problemləri aşkar ksenofob ritorikanın daha da yayılmasına gətirib çıxartdı. Bütün bu yeni ab-hava və ABŞ və Avropa İttifaqındakı institusional çatışmazlıqlar populist, antielitist və antiimmiqrant dünyagörüşünün insanlar arasında dəstək qazanmasına şərait yaratmışdır. ABŞ-da hadisələrin bu cür inkişafının ən pik nöqtəsi özünəməxsus populist ritorikası ilə fərqlənən Donald Trampın prezident seçilməsi, Avropda isə Birləşmiş Krallığın Avropa İttifaqından çıxması – Breksit olmuşdur. Əlavə olaraq, demək olar ki, Avropanın əksər yerlərində bənzər siyasi diskursu dəstəkləyən sağçı, populist qruplar müxtəlif seçkilərdə müvəffəqiyyət qazanmışdırlar.

İşin aktuallığını şərtləndirən digər amillər aşağıdakılardır:

- ABŞ və Avropa İttifaqının dünya ümumi daxili məhsulunda kifayət qədər böyükdür. Onlar iqtisadi zənginlik, texnoloji inkişaf,

hərbi güc kimi kriteriyalardan əlavə olaraq, həm də “yumşaq güc” baxımından da önəmli dövlətlərdir. Yumşaq gücü olan ölkələr imitasiya obyektinə çevrilir, burada olan siyasi, ictimai və digər trendlər başqa kütlələr tərəfindən də təqib edilməyə, təkrarlanmağa başlanır. Bu regionların həm də belə bir böyük üstünlüyünün olması onları daha da önəmli siyasi aktorlar edir.

- Qərb həm də İkinci Dünya müharibəsindən sonra yaranan müasir dünya nizamının qurucularındandır. Həm tarixi, həm də mövcud siyasi-iqtisadi konyunkturaya nəzər yetirdikdə regionun dünya üçün önəmi danılmazdır. Bu səbəblərdən Qərbdə baş verən yeniliklərin və dəyişikliklərin öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

- ABŞ-da və Qərbi Avropa ölkələrində yeni yaranmış, populyarlıq qazanmış, dünyanın digər yerlərinə də sürətlə yayılan yeni siyasi cərəyanlar və onların beynəlxalq münasibətlərə təsirinin geniş və hərtərəfli tədqiqi beynəlxalq siyasi sistemin bir hissəsinə çevrilmiş Azərbaycan Respublikası üçün da önəmlidir. Bu ölkələr dünyanın getdiyi istiqamətə böyük dərəcədə təsir etdiyindən onların daxilində gedən proseslərin təhlilinin elmi mahiyyəti vardır.

- Mövzunun aktual edən digər bir amil isə tarix boyu beynəlxalq münasibətlərə önəmli dərəcədə təsir edən bu regionlarda yeni siyasi fenomenlərin meydana gəlməsi ilə ölkələrdəki ənənəvi dünyagörüşünün dəyişikliklərə uğramasıdır. Bu mənada şübhəsiz ki, baş verən yeni proseslərin ətraflı şəkildə öyrənilib başa düşülməsi vacibdir. Bu səbəbdən ABŞ-da və Qərbi Avropada ən çox dəstək və rəğbət qazanmış siyasi cərəyanlar tədqiq olunmuşdur.

- Müasir siyasi cərəyanlara ABŞ-da Donald Trampın siyasətdə yüksəlişindən sonra məşhurlaşan, daxili siyasətdə Trampçı populizm adlanan siyasi cərəyan, Börni Səndersin təbliğ etdiyi yeni solçu populizm və radikal, ifrat-sağçı Alternativ sağ cərəyanları aiddir. Qərbi Avropada isə neomilliyyətçilik və yeni sağçı populizm adlan siyasi cərəyanlar elmi işdə tədqiq olunmuşdur. Qitədəki yeni sağçı populizm cərəyanının Avropanın siyasi-iqtisadi təsir baxımından ən önəmli dörd ölkəsi – Böyük Britaniya, Almaniya, Fransa və İtaliyada necə təzahür etdiyi nümunələrlə izah edilmişdir.

- Siyasi cərəyanlar ictimai diskursu və siyasətin ümumi axarını dəyişən, siyasi xəttin formalaşmasına yön verən fenomenlərdir. Onlar

fikirlər, ideologiyalar, müxtəlif siyasi qruplaşmalar kimi fərqli elementlərin cəmi, müəyyən amal üçün baş verən siyasi proseslərin bütövləşmiş və komplektləşmiş formalarıdır[1]. Daxildəki siyasi dinamika və dünya görüşü xarici siyasətin formalaşmasına yön verdiyindən həmin siyasi cərəyanların hansı nəticələrə gətirə biləcəyini öyrənmək önəmlidir.

- Bu faktorlar beynəlxalq müstəvidə dövlətlərarası münasibətlərin qurulması və bir çox qlobal məsələlərə də təsir etdiyindən həmin siyasi cərəyanların ətraflı və sistemli şəkildə tədqiqi böyük mahiyyət daşıyır.

Bu yeni fenomenlər böyük ajiotaj yaratdığına, oturuşmuş sistemləri sarsıtdığına və öz təsir həcminə görə tez bir zamanda dünyada ən maraq doğuran elmi araşdırma mövzularından biri olmuşdur. Dünyada müxtəlif tədqiqatçılar və beyin mərkəzləri həmin regionlarda baş verən siyasi yenilikləri öyrənmək üçün önəmli səylər göstərmişlər. Daniele Albertazzi və Davide Vampa tərəfindən hazırlanmış "Populizm və Qərbi Avropada siyasi rəqabətin yeni formaları" adlı kitab müxtəlif alimlər tərəfindən qələmə alınmış elmi məqalələr toplusudur. Kitabda Qərbi Avropa ölkələrində dəyişən siyasi mübarizə mühiti, yeni idealogiyalar və irticaçı siyasi cərəyanlar haqqında ətraflı şəkildə bəhs edilmişdir. Bölgədə populizmin yüksəlişi və mövcud sistemlərə müxalif partiyaların siyasi xətti haqqında geniş mülahizələr verilmişdir[2].

Jan-İv Kamu və Nikola Leburqun müəllifləri olduqları "Avropada ifrat sağçı siyasət" adlı kitabda regiondakı yeni sağçı siyasi meyillərin necə və hansı şərait altında formalaşdığı, onların fərqli və ortaq cəhətləri haqqında ətraflı fikir mübadilələri təqdim edilmişdir. Tədqiqatçılar bütün sağçı siyasi qrupların səthi olaraq ümumiləşdirilməsinin əleyhinə olub onların daxilindəki fərqlilikləri göstərsə də, bu tip siyasi cərəyanların əsasən qloballaşma və multikulturalizmin gətirdiyi mənfi nəticələrin aradan qaldırılması,

---

[1] Nəsibov, E. Siyasətin tərkib hissələrinin hərəkət xüsusiyyətləri / E. Nəsibov. – Bakı: Elm və Təhsil, – 2010. – 116 s. (s.56-57)

[2] Albertazzi, D. and Vampa, D. Populism and New Patterns of Political Competition in Western Europe. – Oxon: Routledge, – 2021. – 314 p.

etnik homogenliyin qorunması kimi amalları əsas götürdüklərini bildirirlər[3].

Erikur Berqmann tərəfindən yazılmış "Neomilliyyətçilik: Nativist Populizmin yüksəlişi" adlı kitab qərb yarımkürəsindəki yeni populist və milliyyətçi siyasi tendensiyalar haqqında çox önəmli bir mənbədir. E. Berqmann bu elmi əsərdə populist siyasi meyillərin tarixi aspektləri haqqında danışdıqdan sonra, həmin dünyagörüşünü mənimsəyən siyasi təşkilatların uğur qazanmaq üçün hansı taktikalara əl atdıqlarını, insanları öz tərəflərinə cəlb etmək üçün necə bir yanaşma sərgilədiklərini izah etməyə çalışmışdır[4].

Bu vaxta qədər ABŞ-dakı yeni siyasi cərəyanlar mövzusu, əsasən, toplu və komplekt şəkildə işlənilməmiş, hər siyasi cərəyan ayrılıqda bir araşdırma mövzusu olaraq seçilmişdir. Məsələn, ölkədə son dövrlərdə məşhurluq qazanmış Alternativ sağ siyasi cərəyanı haqqında Tomas Meynin müəllifi olduğu "Alternativ sağın yüksəlişi" kitabı bu cərəyanı tam başa düşmək üçün önəmli bir mənbədir. Kitabda həmin radikal siyasi tendensiyanın xüsusiyyətlərini izah etməyə çalışan alim, onun öz sələfləri ilə müqayisədə daha böyük təsirə malik olduğunu söyləyir[5].

ABŞ-dakı Trampçı populizm haqqında isə Deyvid Nayvertin yazdığı "Alternativ Amerika: Tramp dövründə radikal sağın yüksəlişi" kitabında önəmli fikirlər irəli sürülmüşdür. Bu kitabda sağçı siyasi qrupların xüsusilə konspirologiya nəzəriyyələrindən necə istifadə etdiyi, D. Trampın ritorikasının ölkəni necə qütbləşdirdiyi və radikallaşdırdığı haqqında araşdırmalar edilmişdir[6]. Bu müasir sağçı populist tendensiyalar haqqında Vilyam Houel və Terri Monun birgə qələmə aldığı "Prezidentlər, populizm və demokratiya böhranı"

---

[3] Fougier, E. What is Sarkozysm ? The Sarkozy Revolution of the French Right-wing // – Nice: L'Europe en Formation, – 2012. № 365, – p.217-228

[4] Bergmann, E. Neo-Nationalism: The Rise of Nativist Populism. – Cham: Springer International Publishing, – 2020. – 235 p.

[5] Main, T. The Rise of the Alt-Right. – Washington D.C.: Brookings Institution Press, – 2018. – 313 p.

[6] Neiwert, D. Alt-America: The Rise of the Radical Right in the Age of Trump (e-book). Verso, – 435 p.

kitabında da dəyərli məlumatlar vardır[7]. Qərbdəki müasir solçu populizm cərəyanı haqqında isə məşhur alim Şantal Muffun "Solçu populizm uğrunda" kitabında geniş mülahizələr verilmişdir[8].

Xarici müəlliflərdən E. Kofmann, R. İtvell, M. Qudvin, Q. Fitzi, Y. Makert, B. S. Törner, R. Hayniş, E. Massetti, B. Moffit, N. Hüb, E. Laklau, C.B. Judiz, R. Havertz, V.A. Qalston, Ç. Berlet, P. Velfens kimi tədqiqatçılar mövzunun öyrənilməsinə önəmli töhfələr vermişlər.

Türkiyənin keçmiş Baş naziri Ahmet Davutoğlunun qələmə aldığı "Sistemdə zəlzələ və dünya nizamı uğrunda mübarizə: təcridedici populizm inklüziv demokratiyaya qarşı" kitabında da dünyadakı populist, irticaçı və ifrat-sağçı tendensiyalar haqqında bəhs edilmiş, onun regional və qlobal stabilliyə necə zərər vurduğu haqqında mülahizələr verilmişdir. A. Davutoğlu kitabında baş verən radikal siyasi meyillərin qarşısısının alınması üçün daha inklüziv beynəlxalq institutların və mexanizmlərin qurulması lazım olduğunu söyləmişdir. Kitab elmi-nəzəri baxımdan zəngin olsa da, müəllifin öz yanaşmalarını reallaşdırmaq üçün təklif etdiyi praktiki həll yolları o qədər də aydın və dəqiq şəkildə təsvir edilməmişdir[9].

Azərbaycanda bu araşdırma mövzusu haqqında hələ ki, kompleks elmi tədqiqatlar aparılmamışdır. ABŞ-da və Qərbi Avropadakı müasir siyasi cərəyanlar kifayət qədər yenicə meydana gəldiyindən əsas mənbələr xaricidillidir. Azərbaycan dilində olan mənbələr bu dissertasiya mövzusunun ancaq bəzi müəyyən aspektlərini əhatə edir. Məsələn, Nigar Sultanovanın "Avropa İttifaqinin xarici siyasətinin institusional mexanizmləri və Azərbaycanla münasibətlərinin əsas istiqamətləri" adlı dissertasiya işində Avropa İttifaqının xarici siyasətini formalaşdıran institusional mexanizmlər haqqında məlumatlar verilmişdir. Burada həm də Aİ-nın xarici siyasəti və onun institutların fəaliyyəti ilə əlaqəli əsas nəzəri-konseptual yanaşmalar da tədqiq edilmişdir.

---

[7] Howell, W.G. and Moe, M.T. Presidents, Populism, and the Crisis of Democracy. – Chicago: University of Chicago Press, – 2020. – 256 p.
[8] Mouffe, C. For a Left Populism. – London: Verso Books, – 2018. – 112 p.
[9] Davutoglu, A. Systemic Earthquake and the Struggle for World Order: Exclusive Populism versus Inclusive Democracy. – London: Cambridge University Press , – 2020. – 326p.

Azərbaycanlı tədqiqatçılardan Nərgiz Nağıyevanın "Avropa mərkəzçiliyi: modellər və paradiqmalar" elmi əsəri isə Avropa siyasi sisteminin öyrənilməsi ilə bağlı mənbədir[10]. Müəllif əsərində Aİ-nin yaranması, müxtəlif inteqrasiya modelleri kimi mövzularda məlumatlar təqdim etmişdir.

Hər iki regionda da meydana gəlmiş yeni siyasi cərəyanların əsas yaranma səbəblərindən biri miqrasiya məsələsidir. İctimai-siyasi xadim Novruz Məmmədovun ideya müəllifi və baş redaktoru olduğu "Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində" kitabı miqrasiya fenomeninin və onun təsirlərinin öyrənilməsi üçün dəyərli bir mənbədir. Kitabda miqrasiya amilinin tarixi kontekstdən təhlili, müasir miqrasiya böhranının səbəbləri, Aİ ölkələri arasında bu mövzu barədə dərin fikir ayrılıqları kimi mövzular tədqiq olunmuşdur. Kitabda miqrasiya böhranının müasir beynəlxalq münasibətlər sisteminin böyük sınağı olduğu vurğulanır. Bu elmi əsərdə qənaətə gəlinir ki, dünya birliyi miqrasiya böhranının həllinə yalnız beynəlxalq ədalət və hüquq prinsiplərinə əməl etməklə nail ola bilər[11].

Mövzunun araşdırılmasında A.Abbasbəyli, R. Qasımzadə, A. Pənahov, M.Qasımlı, E. Əhmədov, H.Babaoğlu, M. İsgəndərzadə kimi azərbaycanlı alimlərin əsərlərindən istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyektini** ABŞ və Qərbi Avropadakı yeni siyasi cərəyanlar təşkil edir.

**Tədqiqatın predmetini** isə həmin siyasi cərəyanların beynəlxalq münasibətlərə təsiri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatının məqsədi ABŞ və Qərbi Avropa kimi dünyanın aparıcı regionlarında baş verən yeni siyasi dəyişiklikləri sistemli şəkildə təhlil edib onların yaranma səbəblərini və xarakteristikasını öyrənmək, həmin siyasi axınların dövlətlərarası münasibətlər və beynəlxalq siyasi-iqtisadi konfiqurasiyada hansı nəticələrə gətirə biləcəyini

[10] Nağıyeva, N. Avropa mərkəzçiliyi: modellər və paradiqmalar / N. Nağıyeva. Bakı: Elm və Təhsil, – 2017. – 188 s.
[11] Məmmədov, N. Qlobal miqrasiya böhranı: Beynəlxalq münasibətlər və Qərb siyasəti yeni tarixi dönüş ərəfəsində / N. Məmmədov. – Bakı, – 2018. – 308 s.

müəyyənləşdirməkdir. Göstərilən məqsədlərə nail olmaq üçün tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- ABŞ-da yerli əhalinin baş verən siyasi fenomenləri necə gördüyünü başa düşmək üçün ölkənin formalaşması və təkamülü prosesini yığcam və mərhələli şəkildə təhlil etmək;
- Baş verən müasir siyasi tendensiyaların xüsusiyyətlərini müfəssəl şəkildə təyin etmək, bu yeni siyasi axınların yaranmasına səbəb olan maddi, ictimai, siyasi və sosial faktorları araşdırmaq;
- Qərbi Avropadakı ən önəmli inteqrasiya modeli olan Avropa İttifaqındakı institusional çatışmazlıqları və struktural problemləri tədqiq etmək;
- Yeni antielitist və populist siyasi cərəyanların həm daxili, həm də beynəlxalq müstəvidə necə bir təsirə malik olduğunu təhlil etmək;
- Qlobal dünya nizamı, iqtisadi-siyasi sistemlər, beynəlxalq stabillik və çoxtərəflilik kimi məfhumlar çərçivəsindən bu müasir siyasi tendensiyaların əhəmiyyətini müəyyənləşdirmək;
- Həmin yeni siyasi axınların gətirdikləri mümkün təhlükələrin mənfi nəticələrinin aradan qaldırılması və ya azaldılması üçün nəzəri və praktiki cəhətdən manevr perspektivlərinin araşdırılması;
- Qərbdəki bu siyasi cərəyanların beynəlxalq sistemin ayrılmaz bir hissəsinə çevrilmiş Azərbaycan Respublikasına hansı təsirləri olduğunu müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işi yazılarkən sistemli təhlil, müqayisəli siyasi təhlil, nəzəri ümumiləşdirmə, mərhələli analiz, siyasi proseslərin modelləşdirilməsi, induksiya və deduksiya kimi metodlardan istifadə olunmuşdur. Araşdırmada həm ümumelmi, həm də xüsusi elmi tədqiqat metodlarının istifadə olunması onun ətraflı, aydın və hərtərəfli olmasına töhfə vermişdir. Bu dissertasiya işində nəzəri və empirik məsələlər uzlaşdırılmış şəkildə analiz edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- ABŞ-da və Qərbi Avropakı yeni siyasi cərəyanlar mahiyyətcə irticaçı, antielitist və populistdir.
- Bu siyasi tendensiyalar həm daxili, həm də dövlətlərarası münasibətlərdə destabilizasiya edici təsirə malikdir. Lakin onlar daxili

siyasət və qlobal siyasi nizamdakı ümumi qeyri-stabilliyin səbəbi yox, simptomudur.

- Səthi yanaşma sərgiləyərək mövcud status-kvo əleyhinə olan bu siyasi meyillərin qarşısını almaq və ya onların gətirdiyi mənfi nəticələri azaltmağa çalışmaq qeyri-məhsuldar olacaqdır. Əvəzində daha sistemli və hərtərəfli yanaşma seçilməli, ilk öncə bu siyasi axınları yaradan iqtisadi, siyasi və sosial faktorların çözümü hədəflənməlidir.

- Bu cərəyanların yaranma səbəblərindən biri də dünyadakı ümumi geosiyasi və geoiqtisadi konyunkturanın dəyişməsi, texnologiyaların inkişafı, yeni sosial-ideoloji transformasiyaların meydana gəlməsi fonunda mövcud daxili və beynəlxalq institutların köhnəlməsi, özlərini yeniləyə bilməməsidir. Müasir dövr yeni sınaqlar və çətinliklər gətirdiyindən mövcud strukturlar onların idarə və nəzarət edilməsində institusional bacarıq və səlahiyyət baxımından da səriştəli olmalıdır.

- Beynəlxalq münasibətlərdə güc balansının dəyişməsi, əvvəlki siyasi nizamın modifikasiyalara uğraması, iqtisadi neoliberalizm, qloballaşma, böyük korporasiyaların və transmilli şirkətlərin istismarçı addımları bu sistemli problemləri meydana gətirən amillər sırasındadır.

- Yeni siyasi tendensiyaların yaranmasına səbəbiyyət verən amillərdən biri də ölkədaxilində texnokratik elita və sadə camaat arasındakı sinfi bölünmələrdir. Əgər əhalinin müxtəlif təbəqələri arasında reallıqların və maraqların toqquşması önəmli dərəcədə baş verməsə idi, populist və antielitist siyasi axınlar bu qədər kütləvi dəstək qazana bilməzdi.

- Populist siyasi qüvvələrin dəstək qazanması və hakimiyyəti ələ keçirmələri ilə beynəlxalq münasibətlərdə siyasi plüralizm, liberal demokratiya, hüquq bərabərliyi kimi məfhumların siyasi əhəmiyyəti zəifləyə bilər.

- ABŞ və Qərbi Avropanın yürütdüyü siyasi xəttə ənənəvi müxalif mövqe sərgiləyən siyasi aktorlar bu opportunist qruplaşmaları müxtəlif yollarla dəstəkləyərək orada sabitliyin pozulmasına çalışırlar. Cəmiyyətin qütbləşməsi bu ölkələrin diqqətini daxili məsələlərə

çəkəcəyindən xaosun və böhranların davamlı olması həmin müxalif siyasi aktorlar üçün arzu olunandır.

- Antielitist və populist siyasi qüvvələr xarici siyasətdə daha təcridçi və fərdiyyətçi mövqe tutduğundan onların hakimiyyəti ələ keçirməsi fonunda iqlim dəyişikliyi, kütləvi qırğın silahlarının yayılması, immiqrasiya böhranları kimi beynəlxalq təhlükəsizlik məsələlərində əməkdaşlıq zəifləyəcək.

**Tədqiqatın elmi yeniliyi.** Bu vaxta qədər Azərbaycanda seçilmiş mövzu haqqında kompleks, ətraflı və hərcəhətli bir elmi araşdırma aparılmamışdır. XXI əsrdə, xüsusilə 2007-2009-cu illərdəki iqtisadi resessiyadan və 2015-ci ildən başlayan immiqrasiya böhranından sonra meydana gəlmiş irticaçı və populist siyasi cərəyanlar ilk dəfə dissertasiya işi səviyyəsində tədqiq edilmişdir. Bununla da, məsələnin öyrənilməsi kontekstində ölkə ədəbiyyatına ciddi bir mənbə təqdim olunur.

Tədqiqatın elmi yeniliyinin əsas elementləri aşağıdakılardan ibarətdir:

- Qərbdə daxili siyasəti qütbləşdirən həmin siyasi axınların geosiyasi və makroiqtisadi aspektləri, onların beynəlxalq münasibətlərdəki çoxtərəflilik prinsipinə və mövcud dünya nizamına təsir imkanları ilk dəfə kompleks şəkildə araşdırılmışdır.

- İlk dəfə həmin siyasi yeniliklər institusional böhranlar və struktural ziddiyyətlər aspektindən detallı şəkildə təhlil olunmuşdur. Belə bir yanaşma mövcud status-kvo eləyhinə yaranmış yeni siyasi cərəyanları daha yaxşı anlamağa imkan verir.

-ABŞ-da federal hökumətin daxili sosial-iqtisadi münasibətlərə müdaxiləsi baxımından təsir həcminin mərhələlərlə necə genişləndiyi sistemli şəkildə tədqiq olunaraq elmi işin tərkibində göstərilmişdir.

- ABŞ-da "mədəniyyət müharibələri" (culture war) adlanan fenomen ətraflı və tarixi nümunələri ilə izah olunuraq ilk dəfə elmi işin tərkibində tədqiq edilmişdir.

- ABŞ-dakı multietnik və multisektarian yeni solçu populizm haqqında ətraflı məlumat verilmişdir.

- ABŞ-dakı ənənəvi mühafizəkar-respublikaçı siyasi xətdən fərqli olaraq iqtisadi proteksionizmi və mərkəzi hökumətin iç

məsələlərə daha aktiv müdaxilə etməsini dəstəkləyən yeni Trampçı populizm adlanan siyasi cərəyan haqqında ətraflı bəhs edilmiş, faktlar əsasında ümumiləşdirmələr aparılmışdır.

-Neomilliyyətçilik fenomeni haqqında məlumatlar paylaşılmışdır. Onun, əslində, bir növ sivilizasiya kimliyinə əsaslanan yeni milliyyətçilik forması olduğu haqqında qənaətə gəlinmişdir.

- Avropa İttifaqı inteqrasiya modelindəki institusional təzadlar geniş şəkildə izah edilmişdir.

- Qərbdəki yeni siyasi cərəyanların beynəlxalq münasibətlərə hərbi, siyasi və iqtisadi təsirləri tədqiq edilmiş, müasir reallıqlar əsasında gələcəyə dair proqnozlar, təklif və tövsiyələr ifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu dissertasiya işi XXI əsrdə ABŞ və Qərbi Avropada baş verən siyasi dəyişikliklərin öyrənilməsində mühüm mənbədir. Tədqiqat həmin siyasi cərəyanların təkcə daxili siyasətdə deyil, həm də beynəlxalq müstəvidə təsir imkanlarının araşdırılması baxımından önəmlidir. Bu səbəbdən dissertasiya işindəki məlumatlardan xarici siyasət və beynəlxalq əlaqələrlə məşğul olan dövlət müəssisələrinin fəaliyyətlərində istifadə oluna bilər.

Tədqiqatda irəli sürülmüş təhlillər və fikirlər həmin regionlardakı yeni siyasi cərəyanların dərindən öyrənilməsi üçün elmi bazanı zənginləşdirir. Dissertasiya işindəki məlumatlardan ümumiləşdirici əsərlər yazılmasında, ali təhsil institutlarında mövzu ilə bağlı kursların və dərslərin keçirilməsində, sonrakı elmi araşdırmaların aparılmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işi Bakı Dövlət Universitetində yerinə yetirilmişdir. Mövzu fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işi kimi “Beynəlxalq münasibətlər” kafedrasında təsdiq edilmişdir.

Dissertasiyanın əsas müddəaları və elmi nəticələri müəllifin nəşr olunmuş elmi əsərlərində geniş şərh edilmişdir. Tədqiqatçı mövzu ilə bağlı Azərbaycanda və xarici ölkələrdə keçirilmiş respublika və beynəlxalq səviyyəli elmi konfranslarda, simpoziumlarda, sessiyalarda elmi məruzələrlə çıxış etmişdir.

**Dissertasiya işinin strukturu və həcmi** tədqiqatda qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq tərtib edilmişdir.

Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 18168 işarə, I Fəsil – 68455 işarə, II Fəsil – 77487 işarə, III Fəsil – 54422 işarə, Nəticə – 10023 işarə, dissertasiyanın ümumi həcmi isə 229524 işarə (ədəbiyyat siyahısı istisna olmaqla) təşkil edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, problemin elmi araşdırılma dərəcəsi təhlil edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, həmçinin metodları müəyyənləşdirilmişdir. Burada müdafiəyə çıxarılan əsas müddəalar təqdim edilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti açıqlanmışdır.

Dissertasiyanın **“ABŞ-dakı yeni siyasi cərəyanların formalaşması və inkişafı”** adlı fəsli iki paraqrafdan ibarətdir. **“ABŞ-dakı yeni siyasi cərəyanların yaranmasını şərtləndirən amillər”** adlı birinci paraqrafda ölkədəki yeni meydana gəlmiş siyasi cərəyanların əsas yaranma səbəbləri araşdırılmışdır. Həmin səbəblərə əhalinin pisləşən ümuni maddi-iqtisadi vəziyyəti, ölkədəki struktural ziddiyyətlər və ölkədaxili ictimai-mədəni dəyərlər münaqişəsi aiddir.

ABŞ-dakı yeni siyasi cərəyanlar mahiyyətcə populist və irticaçı olub mövcud siyasi spektrumun hər iki tərəfindən olan kütlələri özündə ehtiva edir. Şübhəsiz ki, insanların çoxluqla populist, antielitist ritorikanı qəbul etməsi təsadüfi olmamışdır. On milyonlarla insanın alternativ siyasi istiqamətlərə yönlənməsi buna zəmin yaradan köklü səbəblərin və sistematik çatışmazlıqların olduğu gerçəyini bizə bildirir.

Müxtəlif araşdırmalara görə, ölkədə əhalinin demək olar ki 40 faizindən çoxu maaşdan maaşa yaşayır[12] [13]. Rəsmi rəqəmlər göstərir

---

[12] De Lea, B. How Many Americans Live Paycheck To Paycheck?: [Electronic resource] / Yahoo Finance. – February 19, 2020. URL: https://finance.yahoo.com/news/many-americans-live-paycheck-paycheck-190102599.html

[13] Friedman, Z. 78% Of Workers Live Paycheck To Paycheck: [Electronic resource] / Forbes. – January 11, 2019. URL: https://www.forbes.com/sites/zackfriedman/2019/01/11/live-paycheck-to-paycheck-government-shutdown/#3d8c8adf4f10

ki, 1970-ci illərdən bu günə qədər nominal əmək haqqları artsa da, alıcılıq qabiliyyəti demək olar ki, dəyişməz qalmışdır. Üstəlik, maaşlardakı əksər əhəmiyyətli artımlar yuxarı, rəhbər vəzifələrdə çalışan şəxslərə getmişdir[14].

Ölkədə effektiv sosial müdafiə sisteminin olmaması ictimai həyatın müxtəlif sahələrində özünü biruzə verir. Ağ Evin rəsmi hesabatına görə təxminən yarım milyondan çox insan evsizdir[15]. Hər kəsi əhatə edən bir səhiyyə sisteminin yoxluğundan həm birbaşa səhiyyə xərcləri, həm də siğorta ödənişləri hər il yüz minlərlə insanı iqtisadi çətinliyə salır.

"Mədəniyyət müharibələri" (culture war) ABŞ-da mühafizəkar-ənənəçi dəyərlər və tərəqqipərvər, sosial liberal dəyərləri dəstəkləyənlar arasında baş verən konfliktdir. Demək olar ki hər cəmiyyətdə müxtəlif dəyərlər, siyasi qərarlar və ideyalar haqqında ictimai səviyyədə fikir ayrılıqları və qızğın müzakirələr baş verir. Amma Amerikadakı mədəniyyət müharibələrinin əsas xüsusiyyəti bu debatların ölkəni aşırı qütbləşdirməsi və ictimai-siyasi diskursu kəskinləşdirməsidir. Bunun da başlıca səbəbi ABŞ-ın yeni yaranmış, əsasən gəlmələrdən ibarət bir ölkə olmasıdır. Əsrlərdir hər hansı bir bölgədə yaşayan xalq zamanla yeniliklər və dəyişikliklərdən keçsə də orada daxili dinamika, milli kimlik və dəyərlər müəyyən ölçüdə bərqərar olduğundan Amerikadakı kimi kəskin qütbləşmə və bölünmə baş vermir. Amerikanın cavan və immiqrasiya səbəbindən daim sürətlə dəyişən bir cəmiyyət olması bu tip dəyərlər qarşıdurmasının daha radikal olmasını labüd edir.

Birinci fəslin **"ABŞ-dakı yeni siyasi cərəyanlar və onların təhlili"** adlanan ikinci paraqrafında ölkədəki siyasi-ictimai və iqtisadi diskursa yön verən yeni siyasi cərəyanların xüsusiyyətləri, məzmunu və təsirləri ətraflı şəkildə təhlil olunur. Bu paraqrafda ABŞ daxili siyasətində böyük təsirə malik üç müasir siyasi cərəyan haqqında bəhs

---

[14] Desilver, D. For Most U.S. Workers, Real Wages Have Barely Budged In Decades: [Electronic resource] / Pew Research Center. – August 7, 2018. URL: https://www.pewresearch.org/fact-tank/2018/08/07/for-most-us-workers-real-wages-have-barely-budged-for-decades

[15] The State Of Homelessness In America // White House, The Council of Economic Advisers. – Washington, D.C. – 2019. – 40 p. (p.1)

edilir: Trampçı populizm, Börni Səndersin ilhamlandırdığı müasir solçu populizm və Alternativ sağ cərəyanı.

"Trampçı populizm" Donald Trampın Amerika siyasətində yüksəlişindən sonra məşhurlaşmağa başlayan yeni sağçı populist siyasi tendensiyaları təsvir etmək üçün istifadə olunan ümumi ifadədir. Bu yeni populizm dalğası ABŞ-dakı ənənəvi mühafizəkar və sağçı siyasətdən fərqlənir. Standart Amerikan konservatizmi daxili məsələlərdə kiçik hökumət, iqtisadi fərdiyyətçilik ideyaları üzərində qurulub və Amerikan istisnaçılığını dəstəkləyir[16]. D. Tramp isə bazar qüvvələrinin iqtisadi dinamikanı müəyyənləşdirməyinə imkan verməkdənsə, iqtisadi proteksionizmi dəstəkləmiş, dövlət tərəfindən maliyyələşdiriləcək yeni infrastruktur və tikinti layihələrini həyata keçirməyi və hamını əhatə edəcək səhiyyə sistemi qurmağı vəd etmişdir. O həm də ABŞ-ın xaricdə apardığı hərbi müdaxilələrə də tənqidi münasibət bəsləyirdi [17].

D. Trampın təbliğ etdiyi populizm və digər populist tendensiyalar arasında bir çox fərqlər vardır. Onun ilhamlandırdığı yeni sağçı cərəyan sadə xalqın üzləşdiyi sosial-iqtisadi çətinliklərin baş günahkarlarının əsasən immiqrantlar, dini və etnik azlıqlar olduğu fikrindədir. Bu cərəyan onları XX əsrin ikinci yarısında əldə edilmiş iqtisadi uğurlardan ən çox fayda götürən ənənəvi ağ əhalini əvəzləməkdə təqsirləndirir. Və elitanı bu prosesdə immiqrant və azlıqlarla əlbir olmaqda ittiham edir. Bu cərəyanın tərəfdarları həm də ölkədəki demoqrafik dəyişim haqqında hay-küyçü mövqedədirlər: ölkənin son onilliklərdə dünyanın müxtəlif yerlərindən qəbul etdiyi böyük sayda immiqrant axınının cəmiyyətin milli və mədəni kimliyini dəyişdirəcəyini iddia edirlər[18].

ABŞ-da son dövrlərdə solçu populizmi hərəkətə gətirən, onu populyarlaşdıran və yeni istiqamət verən əsas şəxs Börni Sənders olmuşdur. Börni Sənders müxtəlif etnos, din, irq və mənsubiyyətdən

---

[16] Levinson, S.V. American Conservatism: NOMOS LVI. / S.V. Levinson, J.Parker, M.S. Williams. – New York: NYU Press, – 2016. – 446 p. (p.2; p.24; p.197; p.270)
[17] Herbert, J. The Ordinary Presidency of Donald J. Trump / J. Herbert, T. McCrisken, A. Wroe. – London: Palgrave Macmillan, – 2019. – 242 p. (p.33-35; c.98)
[18] Wong, J.S. Immigrants, Evangelicals, and Politics in an Era of Demographic Change. – New York: Russell Sage Foundation, – 2018. – 154 p. (p.15-33)

olan icmaların birləşməsini hədəfləyir, yeni multietnik koalisiya qurub yeni sinfi şüur yaratmaq istəyirdi. Bu siyasi cərəyan sosial ədaləti (qaradərililər, qadınlar, immiqrant və digər azlıqlara qarşı diskriminasiyasının aradan qaldırılmasını) iqtisadi ədalətlə əlaqələndirir. Əlavə olaraq, o özünü sosial-demokrat və sol olaraq təsvir edən siyasi qüvvələrin daha da kəskin ritorika mənimsəməsini dəstəkləyirdi.

Alternativ sağ ağdərili üstünlüyünü və neonasizm ideyalarını təbliğ edən aşırı sağçı bir siyasi cərəyandır. Alternativ sağ cərəyanı Amerikadakı mühafizəkarlara və standart-normativ sağçı siyasi xəttə etiraz olaraq meydana gəlib. Respublikaçılar Partiyasının və ümumi olaraq mühafizəkarların yetərincə sərt olmadığından şikayətlənən daha radikal sağçı kütlə "alternativ" bir siyasi cərəyan yaratmaq istəmiş və nəticədə Alternativ sağ hasil olunmuşdur.

Alternativ sağın bu qədər təşvişə səbəb olmasının və məşhurlaşmasının əsas səbəblərindən biri də 2016-cı ildə prezidentliyə namizəd Donald Trampın bu hərəkatla əlaqələndirilməsidir. İttihamların ən konkreti bu cərəyanı vaxtilə təbliğ etmiş məşhur sağmeyilli Breitbart medianın icraçı başçısı Stiven Bennonun Donald Trampın yaxın adamlarından biri olmasıdır. S. Bennon D. Trampın prezident kampaniyasının rəsmi başçısı seçilmiş, sonra da Ağ Evin Baş Strateqi və Trampın məsləhətçisi kimi çalışmışdır[19].

Bu günədək Alternativ sağ ilə assossasiya olunan bir çox şəxs müxtəlif terror hadisələri törətmiş, zorakılığa əl atmışdır. Hesablamalara görə 2014-2018-ci illər arasında Alternativ sağ idealogiyasından təsirlənən şəxslər tərəfindən müxtəlif zorakılıq halları qeydə alınmış və nəticədə 43 nəfər qətlə yetirilmiş, 67 nəfər isə müxtəlif bədən xəsarətləri almışdır[20].

Dissertasiya işinin **"Qərbi Avropadakı yeni siyasi cərəyanların məzmunu və xarakteristikası"** adlanan ikinci fəsli iki paraqrafdan ibarətdir. Fəslin **"Regiondakı yeni siyasi cərəyanların**

---

[19] Hawley, G. Making Sense of the Alt-Right. – New York: Columbia University Press, – 2017. – 232 p. (p.127-129)

[20] Hankes, K. and Amend, A. The Alt-Right is Killing People: [Electronic resource] / Southern Poverty Law Center. – February 5, 2018. URL:https://www.splcenter.org/20180205/alt-right-killing-people

**meydana gəlmə səbəbləri"** adlanan birinci paraqrafında Qərbi Avropadakı yeni siyasi cərəyanların yaranma səbəbləri hərtərəfli şəkildə təhlil edilir. Müasir dövrdə Qərbi Avropadakı yeni siyasi cərəyanların meydana gəlməsinin səbəbləri müxtəlif və çoxşahəlidir. Bunlara demoqrafik dəyişim, immiqrasiya böhranları, yerli xalqların etnik və mədəni homogenliyi itirmə qayğıları ilə birlikdə regionun ən böyük inteqrasiya modeli olan Avropa İttifaqındakı institusional və struktural çatışmazlıqlar aiddir. Avropa İttifaqı çox unikal bir quruluşdur: o tipik dövlətlərarası bir təşkilat deyil, federasiya və ya konfederasiya da deyil, lakin özündə həm federativ, həm də konfederativ elementləri ehtiva edir. O, bir çox məsələlərdə üst-milli (supranational) güclərə sahib olsa da tam mənada üst-milli struktur da deyil. Aİ-nin bu qədər çaşdırıcı, mürəkkəb və ümumi olaraq ahəngsiz olması uzun vədədə, irimiqyaslı böhranlarla üzləşdikcə effektiv fəaliyyət göstərə bilməməsinə və ittifaqdaxili tərəfdaşlığın məhsuldarlığının azalmasına səbəb olur[21].

Son illərdə baş vermiş qaçqın böhranları və dini motivli terror hadisələri də populist və milliyyətçi siyasi cərəyanların qitədaxilində böyük dəstək qazanmasına gətirib çıxartmışdır. Bu olaylar avroskeptik və antielitisit ab-havanın yayılmasında katalizator rolunu oynamışdır. BMT-nin rəqəmlərinə əsasən 2015-2018-ci illər intervalında Avropaya 1 milyon 600 mindən çox qaçqın gəlmişdir[22]. Qitəyə tamamilə başqa milliyyətlərdən və mədəniyyətlərdən olan insanların böyük həcmdə axın etməsindən dolayı ictimai narahatçılıq və gərginliklər yaranmışdır. İmmiqrantların törətdiyi bir neçə xoşagəlməz hadisə kütləvi informasiya vasitələri və sosial media şəbəkələrində ən çox müzakirə edilən mövzulardan olmuşdur.

Xüsusilə 2015-ci ildən etibarən İŞİD başda olmaqla bəzi radikal ekstremist təşkilatlar və şəxslər Avropanın bir çox yerində

---

[21] Yaqublu, N. Avropa İttifaqındakı institusional ziddiyyətlərin regionun destabilizasiyasındakı rolu // 1 Millet, 6 Devlet, Ortak Medya (Türkçe konuşan ülkelerin medya platformu) Uluslararası Sosyal ve Beşeri Bilimler Kongresi, – Bakı: İksad Global, 2021, – s. 330-335. (s.330-331)

[22] The Council of the European Union: 1952-2012 : Sixty Years of Law- and Decision-making / ed. Council of the European Union. General Secretariat. – Brussel: Publications Office of the European Union, – 2013. – 45 p. (p.13)

terror hadisələri törətmişdir. Baş vermiş bu hadisələr sosial gərginlikləri artırmış, immiqrantlara qarşı güvənsizlik yaratmışdır.

Ümumiləşdirdikdə, bürokratiyanın böyüməsi, əməkdaşlığın çoxşahəliliyi və instensivləşməsi səbəbindən yaranan mürəkkəb, bəzən də səlahiyyətləri üst-üstə düşən institutlar, struktural dualizm, artan immiqrasiya amili və demoqrafik dəyişim nəticəsində yerli əhalinin etnik homegenliyi itirməyi qayğıları, dəyişən qlobal və regional siyasi-iqtisadi mühit qitənin ən böyük regional inteqrasiya modeli olan Aİ-da səmərəliliyin azalmasına, mövcud quruluşlara olan inamın itməsinə və nəticədə mürtəce populist siyasi cərəyanların güclənməsinə gətirib çıxartmışdır.

İkinci fəslin **"Regiondakı yeni siyasi cərəyanların xüsusiyyətləri və təzahür formaları"** adlanan ikinci paraqrafında Qərbi Avropada müasir dövrdə məşhurlaşmış, böyük sayda insan kütlələrini öz tərəfinə çəkə bilmiş neomilliyyətçilik və yeni sağçı populizm siyasi cərəyanları və onların qitənin fərqli dövlətlərində necə təzahür etməsi haqqında danışılır.

Neomilliyyətçilik sivilizasiya ideyalarına əsaslanan bir növ populist milliyyətçilikdir. Neomilliyyətçi siyasi qrupların ritorikası dolayı yolla fobik (ksenofobik, islamafobik, sinofobik və s.) olan çalarları özündə ehtiva edir və onlar, adətən, bu fobiyaları iqtisadi arqumentlərlə əsaslandırırlar[23]. Məsələn işsizliyin və aşağı maaşın səbəbini immiqrantlarla, ümumi iqtisadi durğunluğu isə neoliberal iqtisadi praktikalar və qlobalizasiya ilə əlaqələndirirlər. Onlar birbaşa olmasa da öz çıxışlarında "ağdərililik", "xristianlıq", "qərblilik" kimi xüsusiyyətlərin arzu edilən və ideal olduğunu ima edirlər.

Neomilliyyətçilik fenomeni Avropa xalqlarının ortaq tarixi-mədəni irs və keçmişə aid olduğunu, bənzər etnik və irqi xüsusiyyətləri daşıdığın vurğulayır və "avropalı, xristian və qərbli" həmrəyliyinin güclənməsinə çağırır.

Avropa qitəsindəki yeni sağçı populist cərəyan isə əsasən Avropa İttifaqındakı institusional ziddiyyətlərə və struktural çatışmazlıqlara reaksiya olaraq meydan gəlmişdir. Müasir sağçı populist cərəyanın əsas amalı ittifaqdan səlahiyyətlərin geri alınıb

[23] Eatwell, R. and Goodwin, M. National populism: The Revolt Against Liberal Democracy (kindle edition). – Penguin UK. – 2018. – 250 p. (p.43-50)

yenidən üzv dövlətlərə verilməsidir. Lakin hansı səlahiyyətlərin hansı ölçüdə geri qaytarılması məsələsi dövlətdən dövlətə dəyişir. Böyük Britaniyada bu, ölkənin Avropa İttifaqını tərk etməsinə gətirib çıxartmış, İtaliyada həmin və ya oxşar siyasi düşüncələri mənimsəyən siyasi qüvvələrin hakimiyyəti ələ keçirməsi ilə əlamətdar olmuşdur. Almaniya və Fransada isə populist qüvvələr hakimiyyəti ələ keçirə bilməsələr də əhalinin önəmli hissəsini öz tərəflərinə çəkməyi bacarmış, iqtidardakı partiyaları öz siyasətini dəyişdirməyə vadar etmişdir.

Dissertasiya işinin **"Qərbdəki müasir siyasi proseslər dünya siyasəti kontekstində"** adlı üçüncü fəsli iki paraqrafdan ibarətdir. **"ABŞ-dakı müasir siyasi meyillərin qlobal siyasətə təsiri"** adlanan birinci paraqrafda ABŞ-dakı yeni siyasi cərəyanların qlobal siyasətə təsirləri detallı şəkildə təhlil edilmişdir.

Amerikadakı yeni populist siyasi cərəyanların beynəlxalq müstəvidə bir çox fərqli təsirləri oldu. Populist ritorika sərgiləyən siyasi qruplar rasionalizmə yox, daha çox emosiyalara xitab etdiyindən iqtisadi-siyasi olaraq qeyri-müəyyənlik artmışdır. Bu cür şəraitdə proqnozlaşdırıla bilinməyən yeni hadisələrin baş verməsi ilə birja, səhm və ümumi olaraq maliyyə bazarlarında qəfil enmə və qalxmalar müşahidə olunmuşdur[24].

D. Trampın hakimiyyətə seçilməsindən sonra onun daha birtərəfli xarici siyasət yeritməsi və çox mübahisəli şəkildə Ortamənzilli Nüvə Qüvvələri haqqında müqavilədən çıxması beynəlxalq hərbi münasibətlərdə gərginliyi artırmışdır. Populist ritorika sərgiləyən siyasi qüvvələr daha təcridçi bir siyasi xətt izləyib öz fərdi mənfəətlərini daha ön plana çəkdiyindən son dövrlərdə beynəlxalq münasibətlərdə çoxtərəflilik prinsipi zəifləmiş, immiqrasiya böhranları, kimyəvi və biolojik silahlar daxil olmaqla kütləvi qırğın silahlarının yayılması, pandemiyalar, iqlim dəyişikliyi kimi kollektiv təhlükəsizlik məsələlərində əməkdaşlıq zədələnmişdir.

Populist qüvvələr çoxtərəfli razılaşmalara yox, ayrılıqda qarşılıqlı şəkildə bağlanmış sazişlərə daha çox üstünlük verdiyindən

---

[24] When Trump tweets, the whole financial world catches a cold [Electronic resource] / The Irish Times. URL: https://www.irishtimes.com/business/personal-finance/when-trump-tweets-the-whole-financial-world-catches-a-cold-1.4017253

regional və qlobal inteqrasiya önəm qazanmamış, beynəlxalq institutların effektivliyi sual altına düşmüşdür. D. Trampın Dünya Səhiyyə Təşkilatı və Paris İqlim Sazişindən çıxması qərarı buna ən bariz örnəklərdir. Əlavə olaraq, onun İranın nüvə proqramı ilə bağlı qəbul edilən Birgə Kompleks Fəaliyyət Planı müqaviləsini tərk etməsi hərbi-siyasi mənada qlobal müstəvidə güvəni azaltmışdır.

D.Trampın prezidentliyi dövründə ABŞ-ın daha təcridçi və birtərəfli xarici siyasət yeritməsilə bəzi regional güclər yaranan həmin boşluğu doldurmağa çalışmışlar. Beləliklə qlobal siyasi nizamın təkqütblüdən çoxqütblüyə doğru irəliləməsi prosesi stimul qazanmışdır. Alternativ sağ və Trampçı populizmin radikal antiislam və antiimmiqrant mövqeyi beynəlxalq münasibətlərdə bu tip ritorikanın yayılması və normallaşmasına gətirib çıxartmışdır. Artıq dünyanın müxtəlif ölkələrində liderlər açıq şəkildə irqçi bəyanatlar verməyi məqbul hesab etmişdirlər.

ABŞ-dakı yeni populist cərəyanların məşhurlaşması nəticəsində dövlətlərarası münasibətlərdə siyasi platform və rəsmi doktrinanın yerinə liderlər arasındakı şəxsi münasibətlər daha da önəmli rol oynadı. Donald Trampın Boris Conson, Rəcəp Tayyip Ərdoğan, Jair Bolsonaro ilə qurduğu mehriban dostluq əlaqələri, Emmanuel Makron və Castin Trüdo ilə soyuq, mübahisəli münasibətləri siyasi müstəvidə qərar vermə proseslərində böyük rol oynamışdır.

Börni Səndersin liderlik etdiyi yeni solçu populist siyasi cərəyan və Trampçı populizm beynəlxalq münasibətlərdə (xüsusilə də Qərb yarımkürəsində) iqtisadi milliyyətçilik fenomeninin güclənməsinə gətirib çıxartdı. Trampçı populizmin beynəlxalq münasibətlərdə ən böyük təsirlərindən biri də qeyri-ənənəvi, qeyri-rəsmi hesab edilən, texnokrat siyasi təbəqəyə aid olmayan şəxslərin hakimiyyətə seçilməsinin normallaşması hadisəsidir. Buna müxtəlif nümunələr göstərmək olar: Ermənistanda populist siyasətçi Nikol Paşinyan, Ukraynada isə komedik aktyor Volodimir Zelenski hakimiyyəti ələ keçirmişdir. Filippində 2016-cı ildə öz qeyri-adi çıxışları və üslubu ilə tanınan Rodrigo Duterte prezident seçilmişdir.

Börni Səndersin ABŞ siyasətində yüksəlişindən sonra onun təbliğ etdiyi radikal populist siyasi xətt dünyanın bir çox yerində səs-

sәda doğurmuşdur. Xüsusilә Qәrbdә özünü sol vә sosial-liberal olaraq adlandıran siyasi güclәr daha kәskin siyasi ritorikaya baş vurmuş, daha anti-korporatist mövqe sәrgilәmişlәrdir.

Alternativ sağ siyasi cәrәyanı dünyanın digәr yerlәrindә dә böyük әks-sәda doğurmuşdur. Alternativ sağ siyasi cәrәyanından tәsirlәnәn bir çox siyasi qüvvәlәr tәşkilatlanaraq siyasi hәyatda aktiv iştirak etmәyә başlamışdır. Buna misal olaraq Fransa, İtaliya, Avstriya vә Birlәşmiş Krallıqda fәaliyyәt göstәrәn İdentitar hәrәkatları (ingiliscә Generation Identity) misal göstәrmәk olar[25].

ABŞ-dakı yeni siyasi cәrәyanların Azәrbaycana birbaşa tәsiri o qәdәr dә hiss olunmamışdır. Lakin ölkәdә aktiv olaraq fәaliyyәt göstәrәn ermәni lobbilәri azәrbaycanlı әhalinin müsәlman olması sәbәbilә xristian kimliklәrini qabardaraq amerikan siyasәtçilәrini öz tәrәflәrinә çәkmәyә çalışmışdır.

Dissertasiya işinin üçüncü fәslinin **"Qәrbi Avropadakı müasir siyasi meyillәrin beynәlxalq müstәvidә yeri"** adlanan ikinci paraqrafında Qәrbi Avropadakı siyasi cәrәyanların qlobal siyasәtә vә beynәlxalq münasibәtlәrdә özünәmәxsus yeri olan Azәrbaycan Respublikasına tәsirlәri hәrtәrәfli şәkildә tәhlil edilmişdir.

Qәrbi Avropa İkinci Dünya müharibәsi sonrası meydana gәlmiş liberal dünya nizamının qurucularından olduğundan, demokratiya, siyasi plüralizm vә tolerantlıq ideyalarının yayılmasında böyük rol oynadığından buradakı ksenefob, birtәrfli, qәrәzli meyillәrin böyük miqyasda mәşhurlaşması böyük tәәccüb doğurmuşdur. Qәrbi Avropakı müasir sağçı populizm Avropa İttifaqı başda olmaqla regiondakı mövcud beynәlxalq institutların zәiflәmәsinә vә avroskeptizmin güclәnmәsinә töhfә vermişdir[26]. Belә bir şәraitdә köhnә regiondaxili әdavәtlәrin yenidәn alovlana bilmә ehtimalı artmışdır.

Beynәlxalq münasibәtlәrdә demokratiya vә liberalizm kimi ideyaların әn әsas ixracatçıları vә müdafiәçilәrinә çevrilmiş bu region

---

[25] What is Generation Identity? : [Electronic resource ] / Al Jazeera. – December 10, 2018. URL: https://www.aljazeera.com/news/2018/12/10/what-is-generation-identity

[26] Albertazzi, D. and  Vampa, D. Populism and New Patterns of Political Competition in Western Europe. – Oxon: Routledge, – 2021. – 314 p. (p.119; p.217; p.246)

ölkələrində belə bir böhranın meydana gəlməsi Qərbə müxalif siyasi aktorların mövqelərini gücləndirmişdir. Xüsusilə Rusiya qitədəki sağçı, populist və neomilliyətçi qüvvələri dəstəkləyərək mövcud liberal və antirus mövqeli siyasi sistemləri dəyişdirməyə çalışmışdır.

Qərbi Avropadakı neomilliyyətçilik və yeni sağçı populizm cərəyanlarının güclənməsi beynəlxalq münasibətlərdə siyasi və iqtisadi plüralizm, azlıqların hüquqları kimi mövzuların əhəmiyyətinin azalmasına gətirib çıxartmışdır. Buradakı yeni siyasi meyillər qlobal "qeyri-liberallaşma" fenomeninə gətirib çıxartmış, nəticədə beynəlxalq münasibətlərdə "qeyri-liberal demokratiya" (illiberal democracy) fenomeni yayılmışdır.

Qərbi Avropakı yeni siyasi cərəyanların əsas nəticələrindən biri də beynəlxalq münasibətlərdə qloballaşmanın yerinə lokallaşma, ictimai-siyasi diskursda mötədilliyin yerinə kəskin siyasiləşmə, qərar vermədə konsensusa çatmağın əvəzinə qütbləşmə kimi meyillərin güclənməsidir.

Qərbdəki müasir milliyyətçi və sağ-populist siyasi qüvvələrin təbliğ etdiyi əsas ideyalardan biri "sivilizasiya" ideyasıdır. Bu siyasi meyillərin Avropada böyük dəstək qazanması və aktuallaşması müqabilində beynəlxalq münasibətlərdə sivilizasiya faktoru daha da önəmli hala gəlmişdir. Misal olaraq, bu tendensiyaların əyani təzahürünü 2022-ci ilin fevralın 4-də Ukraynada hərbi əməliyyatlar başlamamışdan bir neçə həftə əvvəl Rusiya və Çinin birgə yayımladığı bəyanatda da aydın görmək olar. Bu bəyanatda bir neçə dəfə sivilizasiya ideyasının önəmi vurğulanmışdır.

Qitədə baş vermiş yeni siyasi cərəyanların təsirləri özünü Azərbaycana münasibətdə də hiss etdirmişdir. Baş vermiş siyasi dəyişikliklər fonunda xüsusilə Fransa və Almaniyadakı irqçi, islamofob siyasi qüvvələr Qarabağ münaqişəsindən öz siyasi məqsədləri üçün istifadə etmiş, açıq və təhrikedici tərzdə erməni işğalını dəstəkləyən addımlar atmışdırlar. Sağçı-populist və milliyyətçi hesab olunan bir çox avropalı siyasətçinin provokativ şəkildə işğal olunmuş ərazilərə səfəri və verdikləri bəyanatlar Azərbaycan-Avropa münasibətlərinə ciddi xələl gətirmişdir.

Avropadakı ənənəvi siyasi partiyalar da daxildəki populist ab-havadan təsirlənərək öz mövqelərində dəyişikliklər etməyi lazım

bilmişdirlər. Onlar əvvəlki kimi daha mötədil siyasi xəttin əvəzinə sağçı populist siyasi qüvvələri razı salmaq üçün müxtəlif addımlar atmışdılar. Bunlardan biri 2020-ci ildə müharibə zamanı Fransa Senatının Dağlıq Qarabağı müstəqil respublika kimi tanımasını misal göstərmək olar[27]. Şübhəsiz ki, Fransa tərəfindən gələn bu cür aqressiv bəyanatlar və ritorika Azərbaycan-Fransa münasibətlərində gərginlik yaratmışdır. Azərbaycan Respublikası haqlı olaraq müxtəlif yollarla buna cavab verməli olmuşdur. Fransada qərəzli şəkildə Azərbaycan əleyhinə propaqandanın güclənməsi həm də bu ölkənin həmsədrlik etdiyi ATƏT-in Minsk qrupu çərçivəsindəki fəaliyyətinə kölgə salmış, onun obyektiv olaraq ədaləti təmin edə bilməyəci haqqında əsaslı şübhələr doğurmuşdur.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr əsasında nəzəri və praktiki əhəmiyyət kəsb edən tövsiyyələr irəli sürülmüşdür. Beləliklə, ABŞ-da və Qərbi Avropakı yeni siyasi cərəyanlar beynəlxalq münasibətlərdə destabilizasiya edici təsirə malikdir. Onların böyük əksəriyyəti antiqlobalist, antielitist, irticaçı və populistdir. Həmin siyasi cərəyanlar ictimai diskursu kəskinləşdirmiş, müxtəlif regionlarda cəmiyyətin qütbləşməsinə gətirib çıxartmışdır. Tarix bənzər siyasi hərəkatların zamanla avtoritarlaşması nümunələri ilə zəngin olduğundan, haqlı olaraq, çox zaman bu qüvvələr siyasi plüralizm, liberal demokratiya və söz azadlığı üçün təhlükə olaraq görünür. Ümumi mənzərəyə baxdıqda baş verən yenilikləri siyasi qeyri-stabilliyin səbəbi kimi yox, simptomu kimi görmək daha doğru olardı. Bunun üçün də həmin siyasi yenilikləri və etirazçı tendensiyaları yaradan faktorlar müfəssəl şəkildə həll edilməlidir.

[27] Turkish Parliament condemns France for recognizing Nagorno-Karabakh as 'republic': [Electronic resource] / Daily Sabah. – November 27, 2020. URL: https://www.dailysabah.com/politics/diplomacy/turkish-parliament-condemns-france-for-recognizing-nagorno-karabakh-as-republic

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Beynəlxalq münasibətlərdə sivilizasiya və mədəniyyət fərqlərinin konfliktlərin yaranmasında mümkün rolu // – Bakı: "Beynəlxalq münasibətlərin aktual problemləri" adlı Respublika elmi konfransı, 2019. p. 357-360.
2. Əhməd bəy Ağaoğlu və liberal dəyərlər (Əhməd bəy Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" adlı əsəri əsasında) // – Bakı: "Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyinə həsr edilmiş Beynəlxalq Simpoziumun materialları", 2019. s.464-468.
3. Yaxın Şərqdə demokratiya niyə uğursuzluqla nəticələnir?: səbəblər və amillər // – Bakı: Geostrategiya" jurnalı, – 2020. №2(56). – s. 34-43.
4. Müasir dövrdə Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsinin aktuallığı // – Bakı: Odlar Yurdu Universitetinin "Elmi və Pedoqoji xəbərlər" jurnalı, – 2020. № 53. – s. 177-185.
5. The impact of modern western political trends on global intercultural dialogue // – Ankara: "Intercultural relations in the modern world", 2021. p. 180-185.
6. Институциональная эволюция системы управления США // – Bakı: "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, 2021. №1(73). c. 281-289.
7. Рост популизма, национализма и социалистических настроений в США: причины и перспективы развития явления // – Москва: "Вопросы истории", – 2021. №5(2). с. 191-197.
8. Differences between traditional and modern right-wing populist political movements in the United States: the examples of Tea Party Movement, Trumpian Populism and Alt-Right // – Ankara: "World Science: problems and innovations" dedicated to the 115th anniversary of Mahammadhuseyn Shahriyar, 2021. p. 206-210.
9. Is libertarianism the new future? Analyzing ideological and philosophical roots of the libertarian thought in the United States // – Odessa: "Актуальні проблеми політики", – 2021. №67. p. 125-135.

10. Qərbdəki populist siyasi hərəkatların beynəlxalq institutlara və dövlətlərarası tərəfdaşlığa təsiri // – Bakı: "Sivilizasiya" jurnalı, – 2021. №2(47). s.124-130.
11. Neomilliyyətçilik siyasi cərəyanının səciyyəvi xüsusiyyətləri // – Bakı: “Geostrategiya” jurnalı, – 2021. №4(64). s.39-45
12. Avropa İttifaqındakı institusional ziddiyyətlərin regionun destabilizasiyasındakı rolu // “1 Millet, 6 Devlet, Ortak Medya (Türkçe konuşan ülkelerin medya platformu) Uluslararası Sosyal ve Beşeri Bilimler Kongresi”, – Gölbaşı: İksad Global, 2021, – s. 330-335.
13. The struggle of democratic political movements and organizations against the Bolshevik regime in Azerbaijan // – Warsaw: “Nowy Prometeusz”, – 2023. №18. p.99-109.



Dissertasiyanın müdafiəsi "23" may 2024-cü il tarixində saat 13:30-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, Lermontov küçəsi, 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "20" aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.04.2024
Kağızın formatı: A5
Həcm: 40200
Tiraj: 100